*Orta ixtisas təhsili: Perspektivlər və vəzifələr*

# *Astara Pedaqoji Kollecində kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması üzrə yeni ixtisaslar açılıb*

**Ağababa İbrahimov,**

**Astara Pedaqoji Kollecinin direktoru**



***Astara Pedaqoji Kolleci indi özünün ən məsuliyyətli dövrünü yaşayır. Kollec təkcə xarici görünüşündən deyil, təhsilin məzmunu, keyfiyyəti və elmi-pedaqoji potensialı baxımından da xeyli təkmilləşir. Cari ilin əvvəlindən bütün sahələrdə ciddi dəyişikliklər aparmaqla kollecimizi ölkənin ən qabaqcıl və nümunəvi orta ixtisas təhsili müəssisəsinə çevirmək istiqamətində konkret və əməli tədbirlər görülür.***

Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir. Son vaxtlar kənd təsərrüfatının inkişafı ilə strateji

hədəflərin müəyyənləşdirilməsi və dövlət dəstəyinin gücləndirilməsi bu sahənin yeni mərhələyə keçməsinin güclü təməlini qoyub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aqrar sahənin sürətli inkişafı üçün verdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar artıq öz bəhrəsini verməkdədir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yerinə yetirilməsi aqrar sektorda istehsalın artmasına, mövcud problemlərin həllinə və məhsulların ixrac imkanlarının gücləndirilməsinə müsbət təsir göstərib.

Möhtərəm Prezident cənab İlham Əliyevin şəxsən bölgələrə səfər etməsi, inşa olunan aqromüəssisələrlə tanış olması, regional müşavirələr keçirməsi, istehsal və əkin sahələrində əməkçilərlə görüşməsi aqrar sahədə daha yüksək nəticələrin qazanılmasına əlavə stimul verir.

Prezident İlham Əliyev sentyabrın 2-də Lənkəran və Cəlilabad rayonlarına səfəri zamanı bir neçə mühüm əhəmiyyətli obyektlərin açılılışında iştirak etmiş və sakinlərlə görüşmüşdür. Lənkəran şəhərində keçirilən respublika müşavirəsində ölkə Prezidenti aqrar sektorun inkişafı ilə əlaqədar öz tövsiyə və tapşırıqlarını vermişdir.

Müşavirədə çıxış edən Astara Rayon İcra Hakimiyyətinin başçısı hörmətli Qəzənfər Ağayev bildirib ki, ölkəmizdə kənd təsərrüfatının inkişafına göstərilən dövlət dəstəyi rayonumuzda aqrar sektorun inkişafına böyük təkan verib. Rayonda görülən işlərdən danışan icra başçısı Qəzənfər Ağayev çıxışında vurğulayıb ki, "ölkədə aqrar sektorun davamlı inkişaf etdirilməsi üçün möhtərəm Prezident tərəfindən verilən tağşırıqların icrası ilə əlaqədar bütün imkanları səfərbər edərək qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacağıq".

Dövlət əmək bazarının tələblərinə uyğun olaraq təhsil müəssisələrinə ixtisaslı kadr hazırlığı üçün dövlət sifarişləri verir və məzunların müvafiq işlə təmin olunmasına şərait yaradır. Təhsil naziri Mikayıl Cabbarov müsahibələrin birində demişdir: "Azərbaycan artıq yeni dövrə - modernləşdirmə dövrünə qədəm qoyub. Bu dövrün hədəfləri sosial-iqtisadi həyatın qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılmasından, bu yolla davamlı iqtisadi inkişafın təmin olunmasından, eləcə də əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsindən ibarətdir. Xalqımızın

müstəqil yaşamaq kimi tarixi haqqının gerçəkləşməsi gələcək inkişaf perspektivlərinin aydın şəkildə müəyyənləşdirilməsinə imkan verir. Güclü və dinamik inkişaf edən Azərbaycanın insan kapitalı müasir dövlətçilik fəlsəfəmizin əsas hədəfidir. Bu hədəflərin gerçəkləşməsi də xeyli dərəcədə təhsilin üzərinə düşür və onun daşıdığı missiya ilə bağlıdır”.

Orta ixtisas təhsilinin ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həllində və cəmiyyətin peşə-ixtisas təhsilinə olan tələbatının ödənilməsində özünəməxsus yeri var. Təhsilin bu pilləsi iqtisadiyyatın müxtəlif sahələrinin ixtisaslı kadrlarla qısa müddət ərzində təmin olunmasında xüsusi əhəmiyyət daşıyır. Əgər ali məktəblər kadr hazırlığına 4-6 il vaxt sərf edirlərsə, orta ixtisas təhsili müəssisələri operativ olaraq tam orta təhsil bazasından qəbul olunanlar üçün 2-3 il ərzində mütəxəssis hazırlığını başa çatdırır və istehsalata göndərir.

Bu baxımdan Astara Pedaqoji Kollecində günün tələblərinə müvafiq surətdə kadr hazırlığını həyata keçirmək üçün hər şərait vardır.

Bildiyimiz kimi, Astara kənd təsərrüfatı rayonudur. Uzun müddət kənd təsərrüfatı sahəsi diqqətdən kənarda qalıb. Hətta bir müddət bu sahədə iş tapa bilmədiklərinə görə çoxları ixtisaslarını dəyişməyə məcbur olmuş və digər peşələrə üz tutmuşlar. Odur ki, kollec olaraq biz aqrar bölmədə çalışa biləcək kadrların hazırlığına öz töhfəmizi verməyə çalışırıq. Son dövrlər aqrar sektorun dirçəlməsi göz önündədir. Yerlərdə ixtisaslı mütəxəssislərə tələbat artıb. 2017-ci ildən başlayaraq kollecdə 2 yeni ixtisas - **“Aqronomluq”** və “**Meşə və meşə-park təsərrüfatı**” ixtisasları açılmışdır. Gələn tədris ilindən aqrar sahə üzrə bir neçə yeni ixtisasın qəbul planına salınması üçün Təhsil Nazirliyinə təklif hazırlayacağıq.

Mən kənd təsərrüfatı mütəxəssislərini əməkdaşlıqdan ötrü kollecə dəvət edirəm. Bizim qarşımızda duran ən mühüm vəzifələrdən biri də rayonumuzda fəaliyyət göstərən kənd təsərrüfatı idarəsinin əməkdaşları ilə birgə fəaliyyət göstərmək üçün perspektiv iş planını hazırlamaqdır.

Astara Pedaqoji Kolleci orta ixtisaslı kadrların hazırlığı istiqamətində öz töhfəsini verməkdədir. Kollecdə ölkənin 20-yə yaxın şəhər və rayonundan gəlmiş gənclər təhsil alırlar. Maddi texniki baza zənginləşdirilib, informasiya kommunikasiya

texnologiyalarından istifadə ön plana çəkilib, kabinetlərin kompüterlərlə təchizatı yaxşılaşdırılıb və internetə birbaşa çıxış təmin edilib.

Kollecdə hal-hazırda 800-ə yaxın tələbə təhsil alır. Zəngin avadanlıqla təchiz olunmuş 25 fənn kabineti və auditoriya, 1 emalatxana, 200 nəfərlik akt zalı, 100 nəfərlik yeməkxana və bufet, 10 minə yaxın kitab və dərslik fondu olan kitabxana, müxtəlif idman avadanlıqları olan trenajor otağı, idman meydançaları tələbələrin istifadəsindədir. Kollecin 60 yerlik tələbə yataqxanası var.

Tələbələrin təlim-tərbiyəsi ilə 60-a yaxın müəllim məşğul olur. Müəllimlər arasında 2 nəfər fəlsəfə doktoru, 1 nəfər doktorant, 1 nəfər “Tərəqqi” medallı, 4 nəfər “Qabaqcıl təhsil işçisi” vardır. Kollecdə 9 fənn komissiyası fəaliyyət göstərir. Müəllimlər elmlərin və yeni texnologiyaların son nailiyyətlərindən istifadə edərək tələbələri müstəqil Azərbaycanımızın gələcək inkişafı naminə xidmət göstərməyə hazırlayırlar.

Yaşadığımız qloballaşma dövrünün tələblərindən irəli gələn vəzifələri dərk edərək kollecdə möhkəm özül yaradılmışdır. Bu özül nədən ibarətdir? Ən başlıcası, orta ixtisaslı kadrlar hazırlayan təcrübəli və bacarıqlı müəllim kollektivinin olması və müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılmasıdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında qərarına əsasən mövcud ştatların optimallaşdırılması hesabına kollecə ali təhsilli mütəxəssislər cəlb edilib. Yeni müasir təlim texnologiyaları mənimsəyən bakalavr təhsilli mütəxəssislərin işə qəbulu keyfiyyətin yüksəldilməsi üçün atılan addımlardır.

Orta ixtisaslı kadrların hazırlığında məsuliyyət ikiqat artır. Çünki biz gələcəyimizin əsasını formalaşdırırıq. Gələcək məhz gənclərin necə bilikli, savadlı və intellektual səviyyəli olmasından asılı olacaqdır. Orta ixtisaslı kadrlar iqtisadiyyatımızın və təhsilimizin inkişafında önəmli rol oynayır. Bu məsuliyyətli vəzifəni yerinə yetirmək istiqamətində mühüm işlər həyata keçiririk. Ən əvvəl müəllimlərimizdə məsuliyyət hissini artırırıq. Çünki keyfiyyətli kadr hazırlamaq üçün elmi-pedaqoji potensial öz vəzifələrinin öhdəsindən uğurla gəlməlidir. Daxili nizam-intizam qaydalarina ciddi

riayət etmək, görülən işin keyfiyyətinə və onun bu günün tələblərinə cavab verilməsini daim diqqətdə saxlayırıq.

Kollecdə müxtəlif rəngarəng tədbirlər keçirilib. Bu tədbirlərdə rayon icra hakimiyyətinin, Astara şəhər bələdiyyəsinin, rayon təhsil şöbəsinin, mərkəzi xəstəxananın, gənclər və idman idarəsinin, Heydər Əliyev Mərkəzinin, rayon veteranlar şurasının, Bilik Evinin, "Astara" qəzetinin, ictimaiyyətin nümayəndələri, şəhid ailələrinin üzvləri, əsgər və döyüşçülər iştirak və çıxış etmişlər. Tədbirlərin mövzusu çox zəngin olub: Ulu öndərimiz Heydər Əliyevin qiymətli ideya irsinin öyrənilməsindən tutmuş, milli, tarixi, bayram günlərinin qeyd edilməsi, dilimizin qorunması, müasir gəncliyi düşündürən məsələlər, gənclər arasında hərbi-vətənpərvərlik, Vətənə məhəbbət, milli-mənəvi dəyərlər və s. mövzuları əhatə edir. Bütün tədbirlər formaca maraqlı hazırlanmaqla tələbənin daxili dünyasının zənginləşməsinə, vaxtının səmərəli keçməsinə, təlim zamanı deyilməsi, aşılanması mümkün olmayanların mümkünə çevrilməsinə hədəflənib.

Kollecdə təhsil alan tələbələrin əksəriyyəti qızlardır. Keçirilən tədbirlərdə və aparılan tərbiyəvi işlərdə bu amil nəzərə alınır. Burada əsasən gələcək analara, tərbiyəçilərə daha çox lazım olan keyfiyyətlərin aşılanmasına üstünlük verilir. Çünki nəsillərin necə böyüməsi, öz vətəninin, elinin, obasının ləyaqətini necə qoruması müəllimlərdən çox analardan asılıdır. Yalnız bilikli, savadlı, vətənpərvər, ailənin ləyaqətini, namusunu yüksək tutan analar bu keyfiyyətləri öz övladlarında tərbiyə edə bilərlər.

Müəllim və tələbələrin birgə hazırladıqları tədbirlər öz səviyyəsi və keyfiyyəti ilə fərqlənir. "Dilimizi sevək və qoruyaq", "Milli mənəvi dəyərlərimizi qoruyaq" mövzularında, Aşıq Ələsgər, Vaqif, Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub və digər korifeylərimizin yaradıcılığına həsr edilən tədbirlərdə tələbələrin fəal iştirakı bizi sevindirir. Həmin tədbirlər yerli "Astara" qəzetində işıqlandırılıb və "You tube" internet portalı vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılıb.

Tələbə gənclərin tərbiyə işlərinin əsasını tədris olunan fənlərə böyük həvəs oyatmaq, hərbi vətənpərvərlik tərbiyəsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və başqa istiqamətlər təşkil edir. Bu məqsədlə kollecin pedaqoji və

tələbə kollektivlərinin iştirakı ilə çoxlu kütləvi tədbirlər keçirilir və bu tədbirlərə valideynlər də dəvət olunurlar.

Tələbələrin mənəvi inkişafında, dünyagörüşlərinin formalaşmasında, layiqli vətəndaş kimi yetişməsində mədəni-kütləvi tədbirlərin rolu əvəzsizdir. Tərbiyəvi təsirdən əlavə tələbələrin həmin tədbirlərin hazırlanmasında fəal iştirakı xüsusilə əhəmiyyətlidir. Belə ki, tədbirlərin izləyiciləri olan tələbələr öz həmyaşıdlarının iştirakını görəndə maraqları daha da artır və onlar kimi səhnədə olmağı arzulayırlar. Əlbəttə, tədbirlərdə iştirak etmək və hazırlıqla iş bitmir. Tələbələr həm də tədbirlərdən əvvəl və sonra öz aralarında müzakirələr aparır, fikirlərini bölüşdürür və çatışmayan cəhətləri göstərirlər.

Xüsusən, vətənpərvərlik tərbiyəsinə həsr olunan tədbirlər daha çox təsiredici gücə malik olur. Tələbələrin tədbirdən əvvəl, tədbir vaxtı və tədbirdən sonra hərbi formalarla dəhlizlərdə gəzmələri yoldaşları ilə ünsiyyət saxlamaları onlara bir növ stimul verir. Kollecdə əksər tədbirləri hazırlamaq və ərsəyə gətirməyi tələbələr öz üzərlərinə götürürlər. Əlbəttə, bu zaman müəllimlərin rəhbərliyi və istiqamət vermələri gözlənilir. Lakin bu, elə tərzdə edilir ki, tələbələrin müstəqil surətdə fəaliyyətinə və təşəbbüskarlığına mane olmur. Kollecdə təhsil alan tələbələrlə ünsiyyət prosesində qarşılıqlı hörmət, davranışından asılı olmayaraq hər bir tələbəyə bərabər hüquqlu tərəfdaş, şəxsiyyət kimi münasibət bəslənilir. Mədəni davranış, qərəzsiz, gender bərabərliyini əsas tutaraq tələbə - müəllim devizi altinda tədbirlər keçirilir.

Kollecin idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədilə “Valideyn – müəllim birliyi” adı altında kollecdə təhsil alan tələbələrin valideynləri ilə görüşlər keçirmək, tələbələrin yaşayış tərzi, boş vaxtını necə keçirməsini öyrənmək məqsədi ilə valideynlərlə açıq qapı günləri təşkil edilir. Məsələn, bu il sentyabrın 15-dən 30-nadək bütün qapılar valideynlərin üzünə açıldı və onlar tədris binasını gəzərək tələbə övladlarının dərslərində iştirak etdilər.

Kollecin nizamnaməsindən irəli gələn “Təhsil alanın hüquq və vəzifələri” başlığı altında tələbələrin dövlət, cəmiyyət, ailə və özü qarşısında məsulliyyətini dərk etməsi haqqında söhbətlər keçirilir. Qeyri-hökümət təşkilatlarının, yeniyetməlik yaşına

çatmayanların işi üzrə komissiyanın və hüquq orqanları əməkdaşlarının iştirakı ilə tələbələrin sosial davranışı problemlərinə həsr edilmiş “Narkomaniya ilə mübarizə, narkomaniyanin insan, ailə, cəmiyyətdə yaratdığı fəsadlar”, “Erkən nigahın zərərli cəhətləri”, “İnsan alveri” və s. mövzularda tədbirlər keçirilir.

Bu gün Astara Pedaqoji Kollecində apardığımız məqsədyönlü və keyfiyyətli idarəetmə işi xüsusilə diqqəti cəlb edir. Müəllimlərin elmi-metodiki məqalələri rayon, respublika, hətta beynəlxalq elmi mətbuatda dərc olunur. Kollektivin 2 üzvü – Səbinə Cəfərli və Azad Abdullayev “Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə “Azərbaycan müəllimi” qəzeti redaksiyasının birgə təşkil etdiyi “Ən yaxşı yazı” müsabiqəsində müvafiq surətdə I və II yerlərə layiq görülüblər. Müsabiqədə ölkənin nüfuzlu ali, orta ixtisas və ümumtəhsil məktəblərinin qabaqcıl, təcrübəli, adlı-sanlı müəllimlərinin, fəlsəfə doktorlarının da iştirak etdiyini və dəyərləndirmənin iki mərhələdə kodlaşdırma üsulu ilə aparıldığını nəzərə alsaq müəllimlərimizin ilk iki yerə layiq görülməsi mühüm uğur sayılmalıdır. Sevindirici haldır ki, “Azərbaycan məktəbi” jurnalında kollecin müəllimi Nuranə Mirzəyevanın Aşıq Ələsgərin yaradıcılığına dair elmi məqaləsi dərc olunmuşdur.

Kollektivimiz bu gün Azərbaycan təhsilinin inkişafına öz töhfəsini verməkdədir. Qarşıda hələ görüləsi çoxlu işlər və perspektiv vəzifələr var. Daha yüksək status əldə etmək, yeni müasir ixtisaslar hazırlığını həyata keçirmək və profili genişləndirmək kollec rəhbərliyinin daim diqqət mərkəzindədir.

Kollektivimiz Təhsil Nazirliyinin, Rayon İcra Hakimiyyətinin dəstəyi və ictimaiyyətin köməyi ilə qarşımızda duran vəzifələrin yerinə yetirilməsinə nail olacaq.